# Ermənistanın dövlət terrorizmi siyasətinə dünya niyə susur?

***Ermənistanın hərbi təcavüzü nəticəsində 2020-ci il sentyabrın 27-dən keçən müddət ərzində dinc əhaliyə qarşı törədilmiş hərbi cinayətlər bir daha təsdiq edir ki, işğalçı ölkə Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı və dövlət terrorizmi siyasətini 30 ildən artıqdır ki, bütün dünyanın gözü qarşısında davam etdirir. Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 90-dan çox insan həlak olub, 500-ə yaxın mülki şəxs yaralanıb.***

Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn bütün prinsiplərini, o cümlədən, 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc azərbaycanlı mülki əhaliyə qarşı cinayət əməllərini törətməkdə davam edir. Oktyabrın 15-də təcavüzkar Ermənistan silahlı qüvvələrinin Tərtərdə dəfn mərasimi zamanı qəbiristanlığı atəşə tutması nəticəsində 4 nəfər həlak olub, xeyli insan xəsarət alıb. Oktyabrın 17-də gecə saat 1-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində 13 nəfər həlak olub və 52 dinc sakin xəsarət alıb ki, onların arasında 4-ü qadın, 3-ü azyaşlı uşaqdır. Ümumilikdə, Ermənistan ordusunun Gəncəyə oktyabrın 4-də, 11-də və 17-də raket və ağır artilleriya hücumları nəticəsində 10-u qadın, 6-sı uşaq olmaqla, 26 nəfər həlak olub, 138 nəfər yaralanıb.

Beynəlxalq birliyin cəzasızlığından istifadə edərək faşist ideologiyası və dövlət terrorizmi siyasəti yürüdən işğalçı Ermənistan hərbi təcavüzü daha da şiddətləndirir. Belə ki, oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna "SMERÇ" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 5 nəfər mülki şəxs, o cümlədən, azyaşlı uşaq həlak olub, uşaqlar və qadınlar da olmaqla 13 nəfər ciddi yaralanıb. Bunun ardınca – oktyabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx olduğu ərazisinə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 22 nəfər həlak olub, 70-dən çox insan isə yaralanıb. Ümumilikdə, Ermənistan ordusunun Bərdəyə 2 gün ərzində "SMERÇ" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 27 nəfər həlak olub, 80-dən çox insan yaralanıb.

Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi məlum qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. Həmin sənədlərdə işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması qeyd olunsa da, Ermənistanın açıq-aşkar işğalçılıq mövqeyi tutması nəticəsində bu qətnamələr indiyədək yerinə yetirilməyib.

Belə ki, cəzasızlıq vəziyyətindən istifadə edərək 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutub. Azərbaycan Ordusu bu hərbi təcavüzə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənin layiqli cavabını verir və xalqımız bütünlüklə dövlət başçımızın ətrafında sıx birləşib. Azərbaycan ərazilərinin azad olunması uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmənə sarsıdıcı zərbələri, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, eləcə də 200-dən çox yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin ələ keçirilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaradıb.

Ancaq biz nəyin şahidi oluruq? 30 ildən artıqdır ki, xüsusilə dinc əhaliyə qarşı son terror aktları zamanı təcavüzkara qarşı heç bir təzyiq yoxdur. Dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşır. Xüsusilə, onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının 27 il əvvəl qəbul etdiyi məlum qətnamələr əsasında Ermənistan ordusunun qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etmir. Son illərdə Ermənistan rəhbərliyi və erməni lobbisinin regiondakı vəziyyətdən məqsədyönlü şəkildə istifadə edərək bəzi Yaxın Şərq ölkələrindəki (Suriya, Livan və s.) erməni əsilli əhalinin işğal altında olan Dağlıq Qarabağ və ətraf bölgələrində qanunsuz məskunlaşdırılma siyasəti bütün beynəlxalq hüquq prinsiplərinə ziddir.

Bundan əlavə, bir aydan artıqdır ki, Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində döyüş meydanında məğlub olan Ermənistan hakimiyyəti açıq şəkildə müraciət edərək xarici ölkə vətəndaşlarını könüllü adı altında muzdlular kimi Azərbaycana qarşı hərbi əməliyyatlarda iştiraka cəlb edir. Bununla da uzun illərdir beynəlxalq hüququn norma və prinsiplərini açıq şəkildə pozur.

BMT-nin "Silahlı muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və təliminə qarşı Beynəlxalq Konvensiyası"nda qeyd olunur ki, üzv dövlətlər muzdluları cəlb etməməli, istifadə etməməli, maliyyələşdirməməli və ya onlara təlim keçməməli, eləcə də belə addımları qadağan etməlidirlər. Kəşfiyyat məlumatları da təsdiq edir ki, işğal altında olan Azərbaycan ərazilərində, xüsusilə Dağlıq Qarabağda, daha çox meşələrdə və dağlıq ərazilərdə PKK-nın düşərgələri mövcuddur. Bu, həm də ondan xəbər verir ki, onlar bu gün Azərbaycana qarşı döyüşlərdə iştirak edirlər. Döyüş meydanında öldürülən terrorçuların üzərindən tapılan Kanada və Livan pasportları bunu bir daha sübut edir. Amma erməni lobbisinin təsiri altında olan xarici KİV-lər bu faktları geniş işıqlandırmır.

Qeyd etmək lazımdır ki, Ermənistanın faşist ideologiyası və terroru dövlət siyasətinə çevirməsi danılmaz faktlarla sübut edilir. Bununla yanaşı, işğalçı ölkənin cinayətkar əməlləri, eləcə də terrorçuluq fəaliyyəti indi başlamayıb. Beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixinin 100 ildən çox olduğunu göstərir. Erməni millətçiləri XIX əsrin sonlarında – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hınçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaradıblar. Bundan sonra ermənilərin "böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoyub. Erməni terror təşkilatları bu planı həyata keçirmək üçün siyasi terror aksiyalarından geniş istifadə edilməsini proqram sənədlərində başlıca vasitə kimi nəzərdə tutub.

XX əsrin əvvəllərindən başlayaraq, xüsusilə 1919-cu ilin oktyabrında "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayda "Nemezis" intiqamçı terror hərəkatına başlamaq haqqında qərar verib. Armen Qaronun rəhbərlik etdiyi "Nemezis"in siyahısına Türkiyənin və Azərbaycanın 650 dövlət xadiminin və ziyalısının adları salınıb. Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən 3-5 nəfərlik terrorçu qrupların məqsədi adları siyahıda olan şəxsləri axtarıb taparaq qətlə yetirmək idi. Həmin dövrdə Türkiyə və Azərbaycanın dövlət xadimləri, ziyalıları "Daşnaksütyun" partiyasının "Nemezis" terror hərəkatının hədəfinə çevriliblər.

XX əsrin ikinci yarısında "Daşnaksütyun" partiyası tərəfindən bir sıra terror qrupları yaradılıb. Ötən əsrin 60-70-ci illərində erməni terror təşkilatlarının fəaliyyəti daha da genişlənib. Belə ki, 1975-ci ildə yaradılan "Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu" (ASALA) adlı təşkilat həmin dövrdən başlayaraq Türkiyədə və Avropa ölkələrində bir sıra terror aktları törədib ki, nəticədə günahsız insanlar erməni terrorizminin qurbanı olub.

Erməni terror təşkilatları ötən əsrin 70-80-ci illərində bütün dünyada türk diplomatlarına, 90-cı illərin əvvəllərində isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və Ermənistanla sərhəd bölgələrində azərbaycanlılara qarşı genişmiqyaslı terror aktları həyata keçiriblər. Bununla yanaşı, 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılmış "Orli qrupu" 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı törədib. Xüsusilə, 1983-cü il iyulun 15-də ASALA terror təşkilatı tərəfindən Türk Hava Yollarının Parisin Orli aeroportundakı ofisinin qarşısına yerləşdirilən partlayıcı maddənin işə düşməsi nəticəsində ikisi Türkiyə, dördü Fransa, biri ABŞ və biri İsveç vətəndaşı olmaqla səkkiz nəfər həlak olub, 28-i türk olmaqla 55 nəfər yaralanıb. Bundan əlavə, Avropanın bir çox ölkələrində fəaliyyət göstərən erməni terror qrupları Fransa, İtaliya və Yunanıstanda həyata keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürüb.

Bu qanlı terror aktlarına baxmayaraq, "erməni soyqırımı" iddialarının müdafiəçisi olan Ermənistan rəhbərliyi və lobbisi erməni terrorunu unutdurmağa çalışır, terror təşkilatlarının və terrorçuların xatirəsinə müxtəlif tədbirlər keçirir, abidələr ucaldırlar. Ermənistanın paytaxtı Yerevandakı "Yerablur" dövlət hərbi qəbiristanlığında ASALA terror təşkilatının üzvlərinin xatirəsinə ucaldılan abidə və ASALA terrorçularının "qəhrəman" kimi tanıdılması məqsədilə nəşr edilən kitablar bunun bariz nümunəsidir.

XX əsrin 80-ci illərinin ikinci yarısında, ermənilər özlərinin xaricdəki himayədarlarının köməyi ilə "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları və hərbi təcavüzü başlayıblar. 1988–1993-cü illərdə monoetnik dövlət yaratmağa nail olan Ermənistan Respublikası Azərbaycana qarşı açıq-aşkar etnik təmizləmə, soyqırımı, işğalçılıq siyasəti yeridib. Nəticədə dinc sakinlər qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, talan edilib və yandırılıb. Hazırda faşist ideologiyası yürüdən Ermənistan terrorizmi bir dövlət siyasətinə çevirərək bundan Azərbaycana qarşı istifadə edir. Ümumilikdə, bu illərdə törədilmiş terror aktları nəticəsində 1200 nəfər dinc sakin həlak olub, 1705 nəfər yaralanıb.

Məlumdur ki, xarici ölkələrdə erməni lobbisi uzun illərdir ki, fəaliyyət göstərir və onlar yaşadıqları ölkənin hökumət, qanunverici orqanlarında lövbər salıblar, orada təmsil olunurlar, eləcə də yaşadıqları ölkələrin kütləvi informasiya vasitələrinə də təsir göstərmək imkanları var. Bu baxımdan, son günlərdə dünyanın bir sıra ölkələrində azərbaycanlılara qarşı təcavüz hərəkətləri heç də təsadüfi deyil. Uzun illərdir ki, erməni lobbisi 1971-ci ildə yaradılmış Amerika Ermənilərinin Milli Konqresi (ANCA) tərəfindən idarə olunur. Onların fəaliyyətində Azərbaycan hədəf seçilib və Azərbaycana qarşı fobiya var. Ümumiyyətlə, Ermənistan cəmiyyətində bu, açıq-aşkar görünür. Azərbaycana, Türkiyəyə qarşı yürüdülən siyasət dünyanın gözü qarşısında baş verir. Ermənistan bilir ki, bu məsələdə Azərbaycan həm tarixə, həm beynəlxalq hüquqa, həm də ədalətə əsaslanır. Lakin ermənilərin yürütdüyü təcavüzkar siyasət və iddialar heç nəyə əsaslanmır. Erməni lobbisi Dağlıq Qarabağın xəritədə harada yerləşdiyini də bilmir.

Prezident İlham Əliyev mütəmadi olaraq Ermənistanın işğalçılıq siyasətini, habelə müharibə cinayətlərinin mahiyyətini açmaqla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün beynəlxalq kürsülərdən konkret faktlarla təcavüzkarı ifşa edir. Heç kimdə şübhə yoxdur ki, hazırda Ermənistanda faşist ideologiyası dövlət siyasətinə çevrilib. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev bir neçə dəfə, xüsusilə 2019-cu ildə Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının iclasında çıxışında Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasını xatırladaraq qeyd edib ki, MDB məkanında, o cümlədən, Ermənistanın əvvəlki hakimiyyəti Yerevanın mərkəzində faşist cəllad və satqın, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub.

Hazırda bu siyasət davam edir və faşizmə xidmət edən Njde, Dro kimiləri Ermənistanda qəhrəmanlaşdırılır, bu antibəşəri fəaliyyət dövlət siyasəti səviyyəsində icra edilir. Ermənistanın baş naziri öz sələflərinin siyasətini davam etdirərək faşistlərin qəhrəmanlaşdırılmasına bəraət qazandırır. Eyni zamanda, Ermənistan hakimiyyətində təmsil olunan yüksək vəzifəli bir sıra şəxslər faşistlərin nəsillərinin davamçılarıdır, onlar ailə bağları ilə faşizm ideyalarına sadiqdirlər, eləcə də bu xislətləri ilə fəxr edirlər.

Dövlətimizin başçısı bəyan edib ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz qalır, bunu hər kəs və bütün dünya bilməlidir. Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi, soyqırımı və işğalçılıq siyasəti 30 ildən artıqdır ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Eyni zamanda, müxtəlif ölkələrdən işğal altında oan Azərbaycan ərazilərinə Ermənistan vasitəsilə qadağan olunmuş silahlar daşınır, amma hamı susur...

Prezident, Ali Baş Komandan İlham Əliyev sentyabrın 27-dən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulduğunu qeyd edərək qəti mövqeyini bildirib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə – necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib – biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Dövlətimizin başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!





***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru***